# AZƏRBAYCAN RESPUBLİKASI

# AUDİTORLAR PALATASI SƏDRİNİN

# S Ə R Ə N C A M I

**Bakı şəhəri** **№1/7** **6 mart 2020-ci il**

**Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli "Açıq hökumətin təşviqinə dair 2020–2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Sərəncamına uyğun olaraq Auditorlar Palatasının vəzifələri barədə**

"Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamını rəhbər tutaraq, Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı Azərbaycan Respublikası Auditorlar Palatasının Tədbirlər Planının (2020-2022-ci illər) işlənib hazırlanması məqsədilə **qərara alıram:**

1. "Açıq Hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı Azərbaycan Respublikası Auditorlar Palatasının Tədbirlər Planının işlənib hazırlanması məqsədilə Auditorlar Palatasında aşağıdakı tərkibdə işçi qrupu yaradılsın:

***İşçi qrupunun rəhbəri:***

Maarif Abbasov – Hüquqi təminat idarəsinin rəisi.

***İşçi qrupunun üzvləri:***

Nəcəf Talıbov – Elm və auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitənin sədri;

Səftər Vəlizadə – "SR AUDİT SOLUTİONS" MMC-nin direktor-auditoru;

Elnur Rzayev – Hüquqi təminat idarəsinin rəis müavini;

Solmaz Məmmədova – Hüquqi təminat idarəsinin baş mütəxəssisi.

2. İşçi qrupuna tapşırılsın ki, iki həftə müddətində "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı Azərbaycan Respublikası Auditorlar Palatasının Tədbirlər Planınının (2020-2022-ci illər) layihəsini işləyib təqdim etsinlər.

**Palatanın sədri** **Vahid Novruzov**